Mayın 27-də təhsil naziri Misir Mərdanov Çexiya parlamenti Deputatlar Palatasının elm, təhsil, mədəniyyət, gənclər və idman komitəsinin üzvü cənab Peter Plevanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Misir Mərdanov qonaqları səmimi salamlayıb və onları Təhsil Nazirliyində görməkdən məmnunluq duyduğunu bildirib. Ölkəmizdə təhsilin inkişafına göstərilən dövlət qayğısından danışan nazir son illər bu sahədə həyata keçirilən tədbirlərdən söz açıb.

Misir Mərdanov qonaqlara Çexiya Respublikasına etdiyi səfər zamanı bu ölkənin təhsil sistemi ilə tanış olduğunu qeyd edib. Azərbaycan-Çexiya əlaqələrindən söz açan nazir təhsil sahəsi üzrə əməkdaşlığın yaradılmasına önəm verdiyini açıqlayıb. Nazir hər iki ölkənin universitet, kollec və orta məktəbləri ilə əlaqələr qurulmasının əhəmiyyətini diqqətə çatdırıb. Eyni zamanda Misir Mərdanov Bakı Slavyan Universitetində çexiyaşünaslıq ixtisası üzrə mütəxəssislər hazırlandığı barədə qonağa məlumat verib.

Ölkə başçısının müvafiq Sərəncamı ilə təsdiq olunmuş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində gənclərimizin dünyanın bir sıra nüfuzlu ali məktəblərində təhsil aldığını vurğulayan nazir bu istiqamətdə işin hazırda davam etdirildiyini bildirib.

Cənab Peter Pleva səmimi qəbul üçün nazirə təşəkkür edib, cəmiyyətin tərəqqisində təhsilin mühüm rol oynadığını vurğulayıb, eyni zamanda öz ölkəsində bununla bağlı görülən işlər haqqında məlumat verib. Qonaq Azərbaycan-Çexiya təhsil əlaqələrinin yaradılmasında maraqlı olduğunu açıqlayıb.

Görüşdə qonağa ölkəmizin ümumtəhsil, peşə və ali təhsil sistemi, ali məktəblərə qəbul qaydaları, eləcə də digər məsələlərlə bağlı ətraflı məlumat verilib.